**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NATİQ ZƏKƏRİYYƏ OĞLU PƏNAHLI**

# AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASI (PROBLEMLƏR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ)

**İxtisas: 6312.01 - Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi**

Sosiologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Sosiologiya şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sosiologiya elmləri doktoru, professor
**Rafael Musa oğlu Həsənov**

**Rəsmi opponentlər:** fəlsəfə elmləri doktoru, professor
**İzzət Əşrəf oğlu Rüstəmov**

Sosiologiya üzrə fəlsəfə doktoru, dosent
**İnşallah İxtiyar oğlu Qafarov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universiteti

Müdafiə "_14__" ___06____ 2013-cü ildə saat "__"-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti 31, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" ________ 2013-cü ildə göndərilmişdir.

**Fəlsəfə, Sosiologiya və Hüquq**
**İnstitutunun nəzdindəki D.01.115**
**Dissertasiya Şurasının elmi katibi,**

**fəlsəfə üzrə fəlsəfə doktoru: S.A. Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** XX əsrin 50-ci illərindən etibarən qlobal miqyasda baş verən dəyişikliklər nəticəsində bəşəriyyət yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dəyişikliklər həyatın bütün sahələrində informasiyanın əhəmiyyətinin artması ilə bağlı olmuşdur. İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) sayəsində informasiya bir tərəfdən gündəlik həyatımızın tərkib hissəsinə çevrilmiş, digər tərəfdən isə ictimai həyatın inkişafının əvəzedilməz və zəruri amili halına gəlmişdir. Bunun nəticəsidir ki, indi həyatı İKT-siz, yəni internetsiz, elektron poçtsuz, telefonsuz, kompyutersiz və eləcə də digər texnoloji avadanlıqlar olmadan təsəvvür etmək olduqca çətindir.

Bəşəriyyətin hazırkı inkişaf mərhələsi informasiya cəmiyyəti adlandırılmaqdadır. Əvvəlki mərhələlərdən – aqrar və sənaye cəmiyyətlərindən fərqli olaraq informasiya cəmiyyətində elektron hökumət, elektron dövlət, elektron idarəçilik və s. kimi anlayışlar gündəmə gəlir ki, bunların da özlərinəməxsus tələbləri var. Bu tələblərin gündəlik həyata tətbiqi nəticəsində vətəndaş-hökumət münasibətləri şəffaflaşır, vətəndaş cəmiyyəti formalaşır, demokratikləşmə istiqamətində daha böyük uğurlar əldə etmək mümkün olur. Çünki elektron dövlətdə vətəndaşların ayrı-ayrı məmurlardan asılılığı minimuma enir, bürokratik əngəllər zəifləyir, dövlətin informasiya resursları insanların istifadəsinə açıq olur və s.

İnformasiya cəmiyyəti geniş şaxəlidir. O, bütün sosial-iqtisadi strukturları və institutları ehtiva edir. İnformasiya cəmiyyətində sosial institutların forma və məzmunu dəyişir, onlar informasiyanın təsiri nəticəsində yeni məna kəsb edir və yeni xüsusiyyətlər qazanır.

İnformasiya cəmiyyətinin qurulması müasir dünyamızın ən aktual qlobal problemlərindəndir. Artıq bütün dünya informasiya cəmiyyətinə keçid prosesinin təxirəsalınmaz olduğunu qəbul edir. Bu məsələ ətrafında həm ayrı-ayrı ölkələr səviyyəsində, həm də beynəlxalq və regional platformalarda geniş müzakirələr aparılır, önəmli qərarlar qəbul edilir. Ciddi cəhdlər göstərilir ki, bütün dünya dövlətləri ən qısa zamanda informasiya cəmiyyətinə daxil olsun. Bu prosesdə hər bir ölkə özünün informasiya təhlükəsizliyini təmin etmək üçün çalışır. Bu məqsədlə bütün ölkələr milli qanunvericiliklərini formalaşdırır, milli

strategiyalarını hazırlayır və İKT ilə bağlı milli infrastrukturlarını qurur, həmçinin informasiya cəmiyyəti sahəsində elmi araşdırmalarını genişləndirir. Azərbaycanın da bu qlobal prosesdən kənarda qalması qeyri-mümkündür. Bu baxımdan ölkəmizdə ən qısa zamanda informasiya cəmiyyəti quruculuğu sahəsində ciddi addımların atılması və dünyada baş verən yeniliklərin respublikamıza gətirilməsi olduqca zəruridir. Əks halda Azərbaycan inkişaf etmiş ölkələr sırasına qoşula bilməyəcək. Əlbəttə, ölkəmizdə bu sahədə müəyyən işlər görülməkdədir. İnformasiya cəmiyyətinin formalaşması baxımından Azərbaycanda hər ölkədə müşahidə olunan problemlərlə yanaşı, bir sıra özünəməxsus problemlər də var. Bütün bunlarla bahəm, ölkəmizin yeni mərhələyə tam daxil olması üçün bəzi üstünlüklərə də sahibdir.

Bu sahədə Azərbaycanda əsas çatışmazlıqlardan biri də elmi ədəbiyyatın azlığı problemidir. Halbuki həyata keçirilən islahatların daha səmərəli nəticə verməsi üçün elmi metodlara əsaslanmaq zəruridir. Bu baxımdan ölkəmizdə informasiya cəmiyyəti ilə bağlı elmi araşdırmaların aparılması məsələsi aktual olaraq qalmaqdadır.

**Problemin işlənilmə dərəcəsi.** "İnformasiya cəmiyyəti" dünya miqyasında nəzərdən keçirilən qlobal bir anlayış olduğu üçün həm ayrı-ayrı ölkələr, həm də beynəlxalq səviyyələrdə onun elmi əsasları hazırlanmışdır. Dünya ölkələrinin alim və tədqiqatçıları informasiya cəmiyyətinə istər tarixi, istərsə də nəzəri aspektlərdən yanaşaraq, elmi konsepsiyalar ortaya atmışlar. İnformasiya cəmiyyətinin 1950-ci illərində meydana gəlməyə başlamasını əsas tutaraq[1], belə tədqiqatları iki dövrə bölmək mümkündür: XIX əsrin əvvəllərindən 1950-ci illərə qədər aparılan tədqiqatlar və 1950-ci illərdən sonra aparılan tədqiqatlar. Birinci dövrə aid edilən tədqiqatlar əsasən informasiya cəmiyyətinin formalaşması üçün bünövrə rolunu oynayan sənaye cəmiyyəti ilə bağlı fikirləri, eləcə də bəşəriyyətin inkişaf mərhələləri haqqında ümumiləşdirilmiş fikirləri ehtiva edir. Bura fransız sosioloqlar - Henri de Sen-Simon, Oqyust Kont və Emil Dürkheymin, alman filosof, sosioloq və inqilab nəzəriyyəçisi Karl Marksın, britaniyalı iqtisadçı Kolin Klarkın, alman sosioloq Maks Veberin, fransız tədqiqatçı,

---

[1] Alakuş M. Bilgi Toplumu. Ankara: Kültür Bakanlığı Yayınları, 1991, s.5

sosioloq və politoloq Raymond Aronun[1] və digərlərinin tədqiqatlarını daxil etmək mümkündür.

İkinci dövrə isə kanadalı tədqiqatçı Herbert Marşal Makluhanın, amerikalı tədqiqatçı Elvin Tofflerin, amerikalı sosioloq Daniel Bellin, amerikalı sosioloq Elvin Vard Qouldnerin, yapon tədqiqatçı Yoneji Masudanın, avstriyalı tədqiqatçı Peter Drakerin, alman filosof və informasiya nəzəriyyəçisi Tom Stonyerin, belçikalı sosioloq Armand Mettelartın, türkiyəli tədqiqatçılar Cihan Dura, Hayriye Atik və digərlərinin tədqiqatları aid edilə bilər. Bu tədqiqatçılar öz əsərlərində konkret olaraq informasiya cəmiyyətindən, onun formalaşmasını zəruri edən səbəblərdən və onun xüsusiyyətlərindən bəhs etmişlər.

İnformasiya cəmiyyətinə birinci keçən ölkə ABŞ olsa da, "informasiya cəmiyyəti" terminindən ilk dəfə 1966-cı ildə Yaponiyada istifadə olunmuşdur. [2] Ondan əvvəl isə "postindustrial cəmiyyət", [3] "texnotron cəmiyyət" kimi anlayışlar elmi ədəbiyyata daxil edilmişdir.

H.M.Makluhan "Vasitə mesajdır" adlı kitabında (1967) zaman və məkan anlayışının ortadan qalxdığını, "Qlobal kənddə müharibə və sülh" adlı kitabında (1968) isə dünyanın informasiya və kommunikasiya texnologiyaları sayəsində "qlobal kənd"ə çevriləcəyini iddia etmişdir ki[4], bu, artıq informasiya cəmiyyəti ilə bağlı reallıqdır. E. Toffler bəşəriyyətin inkişaf tarixini üç dalğa prinsipinə əsaslanmaqla izah etmişdir.[5] Onun fikrincə, birinci dalğa aqrar cəmiyyəti, ikinci dalğa sənaye cəmiyyətini, üçüncü dalğa isə informasiya cəmiyyətini formalaşdırmışdır. Hər dalğa kimi üçüncü dalğa da özü ilə birlikdə iqti-

---

[1] Aron R. La Lutte de classes: Nouvelles leçons sur les societes industrielles. Paris, 1964, 377 p.

[2] İnformasiyalı cəmiyyət: azadlıqlar, qadağalar / Jurnalistika və hüquq seriyası. Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi. Bakı: Yeni Nəsil, 2002, s.70.

[3] "Postindustrial" termini ilk dəfə 1913-cü ildə İngiltərədə təhsil almış əslən hindistanlı olan Ananda K. Kumarasvami tərəfindən işlədilmişdir. O, bu termini industrial, yəni sənaye sivilizasiyasının başa çatmaqda olduğunu ifadə etmək üçün elmə gətirmişdir. 1917-ci ildə isə ingilis Artur C. Penti bu termindən növbəti dəfə istifadə etmişdir. (Mattelart A. Bilgi Toplumunun Tarihi. İstanbul: İletişim Yayınları, 2003, s.38.)

[4] McLuhan. H.M. War and Peace in the Global Village. New York: Bantam Books, 1968, 190 p.

[5] Toffler A. Üçüncü Dalga. İstanbul: Altın Kitaplar, 1998, 496 s.

sadi, sosial, mədəni və siyasi sahələrə yeni həyat tərzi gətirmişdir.[1] D. Bell "İdeologiyanın sonu" (1960) və "Postindustrial cəmiyyətin gəlişi"[2] adlı kitablarında bəşəriyyətin yeni inkişaf mərhələsini "postindustrial cəmiyyət" adlandırsa da, 1979-cu ildən sonra "informasiya cəmiyyəti" terminınə üstünlük vermişdir.[3] D. Bell informasiya cəmiyyətinin təməlində informasiya istehsalının dayandığını söyləmişdir.[4] Amerikalı siyasətçi Elvin Vord Qoldner[5] də D. Bellin fikrini davam etdirərək və məsələyə siyasi yöndən yanaşaraq, "inkişaf etmiş cəmiyyətlərdə nəzəri biliklərə sahib olan yeni sinfin yeni bir siyasi güc mərkəzinə" çevrildiyini qeyd etmişdir.[6] Qoldner həmçinin iddia etmişdir ki, bu sinfin əlindəki "intellektual sərmayə" maddi deyil və tamamilə beyin məhsuludur. P. Draker "buxarla işləyən dəzgah və dəmiryolu sənaye inqilabı üçün nə idisə, kompyuter və elektron ticarət də informasiya inqilabı üçün odur"[7] qeyd etməklə, sənaye və informasiya cəmiyyətləri arasındakı fərqləri ortaya qoymuşdur. Y. Masuda informasiya cəmiyyətinin kompyuterə, İKT-yə, zehni əməyə, qloballaşmaya, informasiya istehsalına əsaslandığını söyləmiş, eyni zamanda informasiya cəmiyyətində insanların gələcək haqqında tərəddüdlərinin artacağını, terror olaylarının çoxalacağını, insanların fərdi toxunulmazlıqlarına məhəl qoyulmayacağı fikrini də irəli sürmüşdür.[8]

İnformasiya cəmiyyətinin əsas faktoru olan informasiya ilə bağlı fikirlər və yanaşmalar da müxtəlif və çoxşaxəli olmuşdur. İlk dəfə T. Stonyer informasiyanı kapital kimi xarakterizə etmiş, milli informasiya resurslarının dövlətlər üçün varlanmağın ən böyük potensial mən-

---

[1] Aktan C., Tunç M. Bilgi Toplumu ve Türkiye. "Yeni Türkiye" Dergisi, Ankara, 1998, Mart-Nisan.

[2] Bell D. The Coming of the Post-industrial Society: A Venture in Social Forecasting. New York: Basic Book, 1973.

[3] Mattelart A. Bilgi Toplumunun Tarihi. İstanbul: İletişim Yayınları, 2003, s.60.

[4] Şahin A. Batı`da Bilgi Toplumuna Geçiş ve Türkiye, "İktisat" Dergisi, 1985, No.246 Mayıs, s.13-18.

[5] Gouldner A.W. The Future of Intellectuals and the Rise of the New Class. New York: The Machmillan, 1979.

[6] Dura C. Bilgi Toplumu. Ankara: Kültür Bakanlığı Yayını, 1990, s.41.

[7] Drucker F.P. Geleceğin Toplumunda Yönetim. İstanbul: Hayat Yayınları. 2002, s.14-20.

[8] Yoneji M. Managing in the İnformation Society: Releasing Synergy Japanese Style. Oxford, 1990, s.6-7.

bəyi olduğunu qeyd etmişdir.[1] Türkiyəli tədqiqatçı Sadık Günəş yeni dövr üçün informasiyanın istehsal olunan, yayılan və etibar edilən məlumat olduğunu bildirmişdir.[2] Tomas Stivard da "Günümüzdə zəngin olmaq üçün ehtiyac duyulan sərmayə ərazi, fiziki əmək, istehsal alətləri və fabriklər deyil. Bunların yerini informasiya alıb" demişdir.[3] Ümumiyyətlə isə informasiya iqtisadiyyatı 1950-ci illərdən etibarən formalaşmağa başlamışdır.[4]

Yaponiya Kommunikasiya və İqtisadi Araşdırmalar Təşkilatı informasiya cəmiyyətinin kriteriyalarını belə müəyyənləşdirmişdir: informasiyanın nisbəti ən azı 50 faiz olmalıdır; adambaşına düşən milli gəlir 10,703 ABŞ dollarından yuxarı olmalıdır; əmək qabiliyyətli insanların ən azı yarısı informasiya sektorunda işləməlidir; müvafiq yaş qrupunun 50 faizi ali məktəbdə təhsilini davam etdirməlidir.[5] İqtisadçı Kolin Klark isə yeni cəmiyyətdə iqtisadiyyatın sektorları arasındakı yerdəyişməni "torpaqdan fabrikə, fabrikdən ofisə" kimi ifadə etmişdir.[6]

Azərbaycanda isə istər sənaye cəmiyyəti, istərsə də informasiya cəmiyyəti ilə bağlı kifayət qədər tədqiqat aparılmamışdır. Bu məsələlərdən bəhs edən kitablara isə hələ ki, rast gəlinmir. Azərbaycanda bu sahə üzrə tədqiqatlar əsasən elmi məqalələrdən ibarətdir. İnformasiya cəmiyyətinin sosioloji aspektlərinin tədqiqatı ilə bağlı da fundamental araşdırmalar ortaya qoyulmamışdır. Ümumiyyətlə Azərbaycanda informasiya cəmiyyəti üzrə əsas tədqiqatçı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnformasiya Texnologiyaları İnstitutunun (İTİ) direktoru, professor, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev hesab olunur. Onun fikrincə, informasiya cəmiyyətinin əsas fəlsəfəsi yaşından, dilindən, dinindən, irqindən, sosial və siyasi

---

[1] Stonier T. The Wealth of Information: A Profile of the Post-Industrial Economy. London: Methuen, 1983, p.31.

[2] Güneş S. Enformasyon Toplumunun Putları. Ankara: Hece Yayınları, 2006, s.15- 20.

[3] Aktan C. Bilgi Toplumu ve Özellikleri.www.canaktan.org/yeni-trendler/bilgi_toplu-mu-ozellik.htm

[4] Kevuk S. Bilgi Ekonomisi Nedir, Bilgi Ekonomisinin Özellikleri. www.ekodialog.com/Makaleler/bilgi_ekonomisi.html

[5] Dordick H.S. Georgette W. The Information Society: A Retrospective View. California: Sage Publication? 1993, p.132.

[6] Piettre A. Histoire de la pensee economique et analyse des theories contemporaines. Paris: Dalloz, 1970.

mənsubiyyətindən, həmçinin zaman və məkandan asılı olmayaraq, bütün insanların informasiya, bilik tələbatını ödəməkdən, onların arasında sosial kommunikasiya mühiti yaratmaqdan, bilik və düşüncələrini, istədikləri məlumatları ictimaiyyətə çatdırmaqdan ibarətdir.[1] R. Əliquliyev başqa bir məqaləsində isə qeyd etmişdir ki, informasiya cəmiyyətinin əsas məqsədlərindən biri cinsindən və iqtisadi statusundan asılı olmayaraq, cəmiyyətin bütün üzvlərinin həqiqi mənada idarəetmədə iştirakının təmin olunmasıdır.[2]

Onu da qeyd edək ki, İTİ-də İnformasiya cəmiyyətinin problemləri şöbəsi fəaliyyət göstərir ki, burada əsasən informasiya cəmiyyətinin texnoloji aspektlərinə diqqət yetirilir. Şöbənin elmi işçiləri – Rasim Mahmudov, Aygün Əhmədova, İradə Ələkbərova və digərləri informasiya cəmiyyəti və onun infrastrukturu olan İKT barədə müntəzəm araşdırmalar aparır və bu araşdırmaların nəticələrini elmi məqalələr şəklində dərc etdirirlər. Qeyd edək ki, şöbənin apardığı tədqiqatlar həm "İnformasiya cəmiyyətinin problemləri" elmi-praktiki jurnalda, həm də "Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası" kitabçasında dərc olunur.

Bundan başqa, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun (FSHİ) da ayrı-ayrı şöbələrində informasiya cəmiyyətinin müxtəlif aspektləri üzrə tədqiqatlar aparılmaqdadır. Xüsusilə qeyd olunmalıdır ki, FSHİ-nin Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri şöbəsində informasiya cəmiyyətinin sosial-fəlsəfi aspektləri tədqiq olunmaqdadır. Şöbənin əməkdaşlarından Firuzə Əliyeva, Elvin Talışınski, Nazilə Məmmədova, Ziba Ağayeva və digərləri müntəzəm şəkildə informasiya cəmiyyətindən bəhs edən elmi məqalələrlə çıxış etməkdədirlər. Şöbənin əməkdaşlarının apardıqları araşdırmaların nəticələri isə "Qloballaşma və informasiya cəmiyyətinin problemləri" elmi məqalələr toplusunda dərc olunmaqdadır.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi dünyada informasiya cəmiyyəti ilə bağlı mövcud olan nəzəriyyə və konsepsiyaları tədqiq etmək, onları qruplaşdırmaq və onların arasından ən optimal olanlarını Azərbaycan təcrübəsinə tətbiq

[1] Əliquliyev R. İnformasiya müharibəsi bəşər tarixinin 7-ci nəsil müharibəsidir. "Paritet" qəzeti, Bakı, 2008, №52, 5-6 iyun.
[2] Əliquliyev R. İnformasiya cəmiyyətinin formalaşması məsələləri. "Renessans" aylıq elmi-kütləvi jurnal , Bakı, 2005, №1, s.43.

etməyin yollarını araşdırmaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin həllinə cəhd göstərilmişdir:

- informasiya cəmiyyətini obyektiv reallıq kimi kompleks şəkildə nəzərdən keçirmək, bəşəriyyətin yeni inkişaf mərhələsinin özünəməxsusluqlarını təhlil etmək və onunla bağlı dünyada mövcud olan nəzəriyyələri qruplaşdırmaq;
- informasiya cəmiyyətinin sosioloji aspektlərini üzə çıxarmaq və yeni şəraitdə insan amilinin əhəmiyyətini qabartmaq;
- informasiya cəmiyyətinin əsas kriteriyalarını müəyyənləşdirməklə, bu kriteriyalar əsasında Azərbaycan üçün müvafiq struktur (cədvəllər əsasında) hazırlamaq;
- informasiya cəmiyyəti quruculuğunda böyük uğurlar əldə etmiş ölkələrin uğurlarını konkret rəqəmlər əsasında göstərməklə, Azərbaycanın müqayisəli təhlilini aparmaq və çatışmazlıqları üzə çıxarmaq;
- Azərbaycanda informasiya cəmiyyəti quruculuğu sahəsində hazırkı vəziyyətin, mövcud problemlərin və perspektivdə görülməli işlərin sosioloji izahını vermək;
- ölkəmizin informasiya cəmiyyəti quruculuğu prosesində qabaqcıl ölkələrdən birinə çevrilə bilməsi üçün praktiki təklif və tövsiyələr irəli sürmək.

**Tədqiqatın obyekti və predmeti:** Dünyada informasiya cəmiyyəti quruculuğunun inkişaf istiqamətləri, eləcə də Azərbaycanda informasiya cəmiyyətinin mövcud vəziyyəti, qarşıda dayanan problemlər və inkişaf perspektivləri bu tədqiqatın obyektini təşkil edir.

Dissertasiya işinin predmeti isə bəşəriyyətin yeni inkişaf mərhələsinin bütövlükdə cəmiyyətə, cəmiyyətdə gedən sosial proseslərə, cəmiyyətin sosial strukturuna, eləcə də konkret olaraq fərdə təsiri, o cümlədən cəmiyyətin ayrı-ayrı təbəqələrinin qlobal dəyişikliklərə və informasiya cəmiyyətinə münasibətlərinin xüsusiyyətləri və qanunauyğunluqları ilə bağlıdır.

**Tədqiqatın elmi yeniliyi.** İşdə olan yeniliklər ilk növbədə onda ifadə olunur ki, informasiya cəmiyyətinin əsas xüsusiyyətləri və dünya təcrübəsi nəzərə alınmaqla, bəşəriyyətin yeni inkişaf mərhələsinin Azərbaycan üçün strukturu hazırlanmışdır. Bu tədqiqat işində Azərbaycanın informasiya cəmiyyəti quruculuğu sahəsində mövcud

vəziyyətini, problemlərini və inkişaf perspektivlərini görmək mümkündür. Tədqiqatdakı elmi yenilikləri belə sıralamaq mümkündür:

- İnformasiya cəmiyyətinin sosioloji aspektlərinə xüsusi yer ayrılmışdır. Bəşəriyyətin yeni inkişaf mərhələsinin xüsusiyyətlərinə əsasən sosioloqların tədqiqatları prizmasından yanaşılmışdır;
- Azərbaycan məkanında informasiya cəmiyyəti ilə bağlı vəziyyəti öyrənmək üçün dünya təcrübəsinə söykənərək, elmi cəhətdən əsaslandırılmış struktur (mövzuya uyğun rəsmi statistik rəqəmlərdən ibarət cədvəllər əsasında) formalaşdırılmışdır. Növbəti illərdə informasiya cəmiyyəti sahəsindəki yenilikləri özündə əks etdirən statistik rəqəmləri həmin struktura (cədvəllərə) şamil etməklə yeni vəziyyəti görmək də mümkün olacaqdır;
- İnformasiya cəmiyyətində insan amili bir problem kimi tədqiq olunmuşdur. İnformasiyanın insan və cəmiyyət üzərindəki təsirləri, yeni texnologiyaların adət-ənənələrimizə, mentalitetimizə təsirləri də bu dissertasiya işində öz əksini tapmışdır, insana təsir edən "virtual fakt" anlayışı ortaya atılmışdır;
- Azərbaycanda cəmiyyətin ayrı-ayrı sosial təbəqələri arasında onların sırf informasiyaya və informasiya cəmiyyətinə münasibətlərini öyrənmək üçün sosioloji sorğu keçirilmişdir. Bu, həmin təbəqələrin informasiya cəmiyyətinə hazırlıqları baxımından müqayisəli təhlilin aparılmasına və proqnozların verilməsinə, eləcə də perspektivin müəyyənləşdirilməsinə imkan verir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya mövzusunun tədqiqində kompleks yanaşmanın baza fənni prinsipindən istifadə olunmuşdur. Tədqiqat işində qarşılıqlı əlaqənin təşkilatçısı rolunda baza fənni kimi sosiologiya çıxış etmişdir. Kifayət qədər mürəkkəb struktura malik olan informasiya cəmiyyətinin tədqiqi zamanı müasir sosioloji konstruktivizmdən, yəni makro və mikro mühitin qarşılıqlı əlaqələrini nəzərdə tutan konstruktivist metodologiyadan istifadə olunmuşdur.

Eyni zamanda mövzu araşdırılarkən həm nəzəri, həm də empirik idrak metodlarına istinad olunmuşdur. Dissertasiyada bəşəriyyətin inkişaf mərhələləri, o cümlədən informasiya cəmiyyətinin tarixi və nəzəriyyəsi ilə bağlı geniş tədqiqatlar aparmış bir sıra müəlliflərin, xüsusilə də sosioloqların mülahizələrinə, həmçinin dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrindən çıxış etməklə informasiya cəmiyyətinin əsas indikatorlarına yer verilmiş, informasiya

cəmiyyəti quruculuğunda böyük uğurlar əldə etmiş ölkələrlə Azərbaycan arasında analogiya və müqayisələr aparılmış, yəni komparativist yanaşmadan istifadə olunmuşdur. Bu yolla informasiya cəmiyyəti quruculuğu prosesində Azərbaycanın potensialı - üstünlükləri və çatışmazlıqları elmi cəhətdən təhlil edilmiş, müvafiq təkliflər irəli sürülmüşdür.

Bundan başqa, vətəndaşların informasiya cəmiyyətinə münasibətlərinin və qlobal dəyişikliklərə hazırlıq səviyyələrinin ölçülməsi və ölkənin gələcəyi ilə bağlı diaqnozların qoyula bilməsi üçün əhalinin müxtəlif təbəqələri arasında anket sorğusu keçirilmişdir. Yəni dissertasiyada empirik metodlardan da geniş istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada informasiya cəmiyyətinin formalaşma tarixi, onun spesifikası, inkişaf xüsusiyyətləri, eləcə də onunla bağlı dünyada geniş yayılmış nəzəriyyələr göstərilməklə yanaşı, bu nəzəriyyələrin Azərbaycanda realizə imkanları araşdırılmış, informasiya cəmiyyətinin mahiyyətinin tam dərkinə imkan verən nəzəri materiallar bir araya gətirilmişdir.

İşin praktiki əhəmiyyətinə gəldikdə isə, qeyd etmək lazımdır ki, toplanılmış nəzəri və empirik materiallar Azərbaycanda informasiya cəmiyyətinin vəziyyəti barədə dolğun məlumat əldə etməyə imkan verir. Burada ortaya qoyulmuş elmi struktur sayəsində Azərbaycanda informasiya cəmiyyəti ilə bağlı real vəziyyəti görmək mümkündür. 274 respondent arasında keçirilmiş anket sorğusu sayəsində isə Azərbaycan vətəndaşlarının informasiya cəmiyyəti barədə məlumatlılıq dərəcəsi, onların informasiyaya, informasiya cəmiyyətinə və İKT-yə münasibətləri öyrənilərək, təhlil olunmuşdur.

O da qeyd edilməlidir ki, bu dissertasiya işi informasiya cəmiyyəti ilə bağlı dərslərin tədris olunduğu ali məktəblərdə elmi vəsait kimi istifadə edilə bilər.

**İşin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Sosiologiya şöbəsində yerinə yetirilmiş, digər şöbələrdən mütəxəssislər cəlb olunmaqla müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin əsas müddəaları və başlıca nəzəri nəticələri müəllifin ayrı-ayrı institut və universitetlərin, eləcə də strateji araşdırmalar mərkəzinin elmi jurnallarında və konfrans materiallarında dərc etdirdiyi

məqalələrdə öz əksini tapmışdır. Bundan başqa, müəllif mövzu ilə əlaqədar mətbuatda da müxtəlif janrlı yazılarla çıxış etmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, onun işlənilmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, obyekti və predmeti, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmiş, işin aprobasiyası və strukturu barədə məlumat verilmişdir.

Tədqiqatın "**İnformasiya cəmiyyətinin formalaşmasının nəzəri-metodoloji məsələləri**" adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. "İnformasiya cəmiyyəti: tarix, nəzəriyyə və inkişaf meyilləri" adlanan birinci yarımfəslində qeyd olunmuşdur ki, bəşəriyyət indiyə qədər bir neçə inkişaf mərhələsini geridə qoymuşdur. Bu yarımfəsildə bəşəriyyətin inkişaf mərhələləri sxem (zəncirvari halqalar) vasitəsilə təsvir olunmuş və bu sxemdəki halqalar ilkin, aqrar, sənaye və informasiya cəmiyyətləri adlandırılmışdır.

Əlbəttə ki, burada informasiya cəmiyyətinin tarixi və nəzəriyyəsinə geniş yer verilmişdir. Ancaq informasiya cəmiyyətinin əsas infrastrukturunun sənaye cəmiyyətində formalaşdığını və sənaye cəmiyyətinin xarakteristikasını dərindən başa düşmədən informasiya cəmiyyəti haqqında yetkin fikrə gəlməyin mümkünsüzlüyünü nəzərə alaraq, sənaye cəmiyyəti ilə bağlı mülahizələrə də diqqət ayrılmışdır. Bu baxımdan Sen Simon, Oqyust Kont, Emil Dürkheym, Karl Marks, Cozef Şumpeter, Kolin Klark, Maks Veber, Emil Lederer və Raymond Aronun mülahizələrinə müraciət edilmişdir. Bu tədqiqatçıların mülahizələri ümumiləşdirilərək, bu qənaətə gəlinmişdir: informasiya cəmiyyətinin başlıca elementləri olan "rasionalizm", "informasiya", "bürokratiya", "ziyalı təbəqəsi" və "xidmət sektoru" kimi anlayışlar sənaye cəmiyyətinin də əsas elementləridir. Fərq ondan ibarətdir ki, bu elementlərin yerinə yetirdiyi funksiyalar informasiya cəmiyyətində daha da konkretləşir və daha çox ön plana çıxır; Sənaye cəmiyyətinin formalaşma prosesi tam başa çatmadan informasiya cəmiyyətinə keçmək mümkün deyil. Çünki informasiya cəmiyyəti sənayeləşmənin üzərində qurulan müasir toplumdur.

Bu yarımfəsildə informasiya cəmiyyətinin 1950-ci illərdə formalaşmağa başladığı və bu cəmiyyətə doğru ilk genişmiqyaslı addımın ABŞ-da atıldığı qeyd olunmuşdur. Belə ki, ilk dəfə olaraq 1956-cı ildə ABŞ-da texniki və idarəetmə sahələrində işləyən və "bəyaz yaxalılar" adlandırılan insanların sayı "mavi yaxalılar" adlandırılan fəhlələrin sayını xeyli ötmüşdür. Beləliklə, ABŞ cəmiyyətində ciddi şəkildə struktur dəyişiklikləri özünü büruzə verməyə başlamış və sənaye dövrünü geridə qoyan yeni bir formalaşma özünü göstərmişdir. 1957-ci ildə SSRİ ilk dəfə olaraq "Sputnik" peykini kosmosa yerləşdirmişdir. Bu hadisə informasiya inqilabını universallaşdırmış və yer kürəsinin qloballaşmasını sürətləndirmişdir.[1] İlk vaxtlar kosmik gəmilərin fəzaya göndərilməsi kosmos əsrinin başlanğıcı kimi qiymətləndirilirdisə, sonradan məlum olmuşdur ki, bu, əslində informasiya əsrinin başlanğıcıdır. Çünki hazırda qurulan kosmik sistem müxtəlif məzmunlu informasiyaların əldə edilməsi və onların ötürülməsinə xidmət etməkdədir. Başqa sözlə, bu sistem informasiyanın qlobal infrastrukturu rolunda çıxış edir. Bütün bunların nəticəsində, Marşal Makluhanın ifadəsiylə, yer kürəsi "qlobal kənd" halını almışdır.[2]

O da qeyd edilmişdir ki, "informasiya cəmiyyəti" anlayışı ilk dəfə Yaponiyada işlənmişdir. Onu bir termin kimi elmi dövriyyəyə isə Tokio Texnoloji İnstitutunun professoru Y. Xalşi daxil etmişdir. Təsadüfi deyil ki, informasiya cəmiyyəti konsepsiyasının tədqiqi ilə də ilk dəfə yapon alimlər məşğul olmuşdur.[3]

Bu yarımfəsildə həmçinin informasiya cəmiyyətinin əsas əlamətləri də göstərilmiş və bu sıraya bunlar daxil edilmişdir: qlobal informasiya mühitinin hazırlanması; informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi, sosial və iqtisadi fəaliyyətin yeni formalarının təsis edilməsi; informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazarının təsis edilməsi və inkişafı; təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artması; demokratik inkişafın vacib şərti sayılan vətəndaşların və sosial institutların

---

[1] Alakuş M. Bilgi Toplumu. Ankara: Kültür Bakanlığı Yayınları, 1991, s.8.
[2] McLuhan M. War and Peace in the Global Village. New York: Bantam Books, 1968.
[3] Z.T.Qolenkova, M.M.Akuliç, V.N.Kuznetsov. Ümumi sosiologiya. Bakı: Diplomatiya, 2007, s.123.

məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarını təmin edən mühitin formalaşması.[1]

Bu yarımfəsildə müəllif mövzu ilə bağlı fikirləri ümumiləşdirərək, informasiya cəmiyyətinə belə bir tərif vermişdir: informasiya cəmiyyəti – zaman və məkandan, həmçinin dinindən, dilindən, irqindən, sosial mənsubiyyətindən və digər fərdi və milli özünəməxsusluqlardan asılı olmayaraq, hər bir şəxsin istədiyi (dövlət sirləri və şəxsi məlumatlar istisna olmaqla) informasiyanı əldə edə və yaya bildiyi, eləcə də informasiyanın özünün əmtəəyə və cəmiyyətin hərtərəfli inkişafında əsas faktora çevrildiyi inkişaf mərhələsidir. Burada bəşəriyyətin elə bir inkişaf mərhələsindən söhbət gedir ki, informasiya strateji statusa malikdir və həm fərd, həm də dövlət ona sahib olmaq və qorumaq üçün bütün imkanlarından istifadə edir.

Birinci fəslin "Qloballaşma və informasiya cəmiyyəti" adlanan ikinci yarımfəslində qloballaşmanın izahı verilməklə yanaşı, onun informasiya cəmiyyəti ilə qarşılıqlı münasibətlərinə əsas diqqət ayrılmışdır. Qeyd olunmuşdur ki, həm qloballaşma, həm də informasiya cəmiyyəti bütövlükdə dünyanı əhatə edir və hər ikisi qlobal xüsusiyyətlərə malikdir. Eyni zamanda, hər iki anlayış qarşılıqlı şəkildə biri-birinin inkişafında önəmli rol oynayır.

Bu yarımfəsildə qloballaşma və informasiya cəmiyyətinin qarşılıqlı münasibətindən bəhs edilərkən qeyd olunmuşdur ki, hər iki anlayışın əmələ gəlməsində və inkişafında elm və texnika böyük rol oynayıb və hələ də oynamaqdadır. Xüsusilə də internetin bütün dünyanı əhatə etməsi və informasiya axınının sürətlənməsi onların formalaşmasını daha da stimullaşdırmışdır. Yəni informasiya hər iki anlayışın formalaşmasında müstəsna xidmətə malikdir. Digər tərəfdən, hər iki anlayışa məxsus qloballıq xüsusiyyəti onları birləşdirir. Ancaq sadalanan ortaq əlamətlər bu anlayışların eyniliyinə dəlalət etmir. Unudulmamalıdır ki, qloballaşma bir prosesdir, informasiya cəmiyyəti isə daha çox bəşəriyyətin yeni inkişaf mərhələsi kimi xarakterizə olunur. İnformasiya cəmiyyətinin qloballaşmanın nəticəsi kimi ortaya çıxması onları fərqləndirən digər amildir. Ancaq qloballaşma hələ də informasiya cəmiyyətinin tərkibində bir proses kimi davam etməkdədir.

[1] Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli Strategiya (2003-2012-ci illər) http://ict.az/az/index.php?option=com_content&task=view&id=335& Itemid=255

Birinci fəslin “İnformasiya cəmiyyətinin sosial aspektləri: insan problemi” adlanan üçüncü yarımfəslində qeyd olunmuşdur ki, informasiya cəmiyyəti texnoloji vasitələrlə özünü göstərsə də, sonradan o, həyatın bütün sahələrinə - iqtisadiyyata, siyasətə, mədəniyyətə, elm və təhsilə, eləcə də sosial-ictimai münasibətlərə, adət-ənənələrə, fərdi və ictimai vərdişlərə çox ciddi təsir göstərir, hətta onları əsaslı şəkildə dəyişdirir. Dinamik sosial orqanizm kimi cəmiyyət də baş verməkdə olan dəyişikliklərdən kənarda qala bilməz. Bu dəyişikliklər cəmiyyətdə mövcud olan bütün sosial institutlara, qrup, birlik və təşkilatlara, sosial struktur və stratifikasiyaya, bütövlükdə sosial sistemə və sosial münasibətlərə təsir edir, onlara yeni məzmun yükləyir. Bütün sosial proseslərin baş verdiyi sosial məkana paralel şəkildə yeni bir məkan – virtual məkan formalaşır və bu məkanların bir-birlərinə qarşılıqlı təsiri özünü göstərir. Bu qarşılıqlı təsir getdikcə daha da dərinləşir.

Bu yarımfəsildə əsas diqqət bəşəriyyətin yeni inkişaf mərhələsində insan amilinə və onunla bağlı problemlərə ayrılmışdır. Burada qeyd olunmuşdur ki, bəşəriyyətin istənilən inkişaf mərhələsinin mərkəzində insan amili dayanır. Hər bir mərhələnin digəri ilə əvəz olunması insanların fəaliyyəti və onların meydana gətirdikləri yeniliklərlə birbaşa bağlıdır. Bununla belə, insanların əqli inkişafı nəticəsində ortaya çıxan yeniliklər insanlara təsirsiz qalmır. Hətta bu təsir öz dairəsini genişləndirərək, insanların şəxsi həyatından tutmuş, bütövlükdə cəmiyyətin bütün davranış tərzlərini bu və ya digər dərəcədə ya dəyişdirir, ya da təkmilləşdirir.

İnformasiya cəmiyyətində insanın yeri və rolundan danışarkən “insan sərmayəsi” anlayışına yer verilmişdir. İnsan sərmayəsi dedikdə, hər hansı müəssisə və ya təşkilatda, eləcə də bir ölkədə işləyənlərin tərbiyə, təhsil və əxlaq səviyyəsi, bilgi, bacarıq və qabiliyyətlərinin, o cümlədən təcrübələrinin məcmusu başa düşülür. İnsanın sərmayəsi onun özüdür. Bir insanın təhsili, bilgisi, bacarıq, qabiliyyət və təcrübəsi nədən ibarətdirsə, sərmayəsi də o qədərdir. Bu sərmayənin yeganə sahibi də insanın özüdür.[1]

İnformasiya cəmiyyətinin insanlar üzərində təsiri daha çox və əhatəlidir. İnformasiyaya yönümlülük və ona qarşı hiss edilən və özünü büruzə verən daxili tələbat insanları informasiya cəmiyyətinə uyğunlaşmağa məcbur edir. Türkiyəli araşdırmaçı Sadık Günəş dünyada baş

---

[1] Çetinkaya Ş. İnsan Sermayesi. www.ekodialog.com/Makaleler/insan_sermayesi.html

verən qlobal dəyişikliklərin insanların həyat və düşüncə tərzinə də ciddi şəkildə təsir etdiyini qeyd etmişdir.[1]

İnformasiya cəmiyyəti texnoloji üstünlükləri ilə yanaşı, eyni zamanda bir sıra çatışmazlıqları ilə də xarakterizə olunur. Belə ki, informasiya cəmiyyəti daha çox fərdiyyətçi sistemdir. Yəni bu sistem insanları cəmiyyətdən qoparır, onu "öz həyatını" yaşamağa sövq edir və nəticədə insanlar özləri üçün "virtual həyat" qururlar və onlar canlı ünsiyyətdən uzaqlaşırlar. İnsanda müəyyən robotlaşma və virtuallaşma simptomları əmələ gəlir. Mütəxəssislər bu halı "kompyuter narkomaniyası" və ya "internet-narkomaniya" adlandırırlar. Bunun psixoloji nəticəsi isə sosial izolyasiyaya (digər insanlarla ünsiyyətdən qismən və ya tamamilə imtina etmək, dostluq əlaqələrinin kəsilməsi, emosiaonal reaksiyaların zəifləməsi, maraq dairələrinin azalması və s.), iş yerlərinin itirilməsi, ailədə ciddi problemlərin əmələ gəlməsinə səbəb olur.[2]

Xüsusilə qeyd olunmalıdır ki, bu yarımfəsildə müəllif fransız sosioloq Emil Dürkheymin ənənəvi cəmiyyətlər üçün irəli sürdüyü "sosial fakt" anlayışından çıxış edərək, "virtual fakt" anlayışını ortaya atmışdır. Məlumdur ki, bəşəriyyət informasiya cəmiyyətinə qədəm qoyduqca və İKT insanların həyatına nüfuz etdikcə, ənənəvi real mühitə paralel şəkildə virtual mühit formalaşır və inkişaf edir. Necə ki, ənənəvi sosial reallığın sosial faktların məcmusundan ibarət olduğunu hesab edən[3] E. Dürkheym sosial fakt dedikdə "kəskin şəkildə müəyyən olan və ya müəyyən olmayan, lakin fərdə xarici təsir göstərə bilən və eyni zamanda özünün fərdi təzahürlərindən asılı olmadan öz xüsusi mövcudluğuna malik olan istənilən fəaliyyət obrazını" [4] nəzərdə tuturdusa, eləcə də virtual mühitin də özünəməxsus reallıqları insanları təsir altında saxlamaq gücünə malikdir. Yəni insan internet vasitəsilə virtual mühitə daxil olur. Bu mühitin də özünəməxsus qayda və normaları var. Bu faktorlar internet istifadəçisindən asılı olmadan

---

[1] Güneş S. Enformasyon Toplumunun Putları. Ankara: Hece Yayınları, 2006, s.8.
[2] Əliquliyev R.M., Mahmudova R.Ş. İnformasiya mədəniyyəti: mahiyyəti və formalaşdırılması problemləri və həlli yolları // Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2008, №1. s. 137-143.
[3] Z.T. Qolenkova, M.M. Akuliç, V.N. Kuznetsov. Ümumi Sosiologiya. (İzzət Rüstəmovun tərcüməsində) Bakı: Diplomat, 2007. S.82.
[4] Дюркгейм Э. Разделение общественного труда. Москва, 1991, С.42.

mövcuddur və fərd virtual mühitdə bu faktorların təsiri ilə fəaliyyət göstərir. Ancaq virtual mühitin ənənəvi sosial mühitdən bir fərqi ondan ibarətdir ki, onun hüquqi qanunlarla tənzimlənməsi çətindir, bəzi hallarda isə mümkünsüzdür.

Ona görə də, mövcud informasiya bolluğu şəraitində insanda informasiya mədəniyyətinin formalaşması olduqca zəruridir. Rus mütəxəssis və alim E.L.Semenyuka görə, informasiya mədəniyyəti insan mədəniyyətinin informasiya komponentidir.[1] Yəni informasiya mədəniyyəti insanın ümumi mədəniyyətinin bir hissəsidir.

İnformasiya cəmiyyətində insanın bir çox müasir keyfiyyətlərə sahib olması mütləqdir. Bu keyfiyyətləri belə sıralamaq mümkündür: rahat ünsiyyət qurmaq bacarığı; təkbaşına öyrənmək, özünü yetişdirmək (mütaliə) və bütün həyat boyu öyrənmək qabiliyyəti; sosial məsuliyyət daşımaq; komanda halında işləyə bilmək; səmərəli düşünmək qabiliyyətinə malik olmaq; informasiya "usta"sı olmaq, yəni informasiyanı hansı mənbədən necə əldə etməyi bilmək.[2] Eyni zamanda yeni insan düşünən, mühakimə edən, araşdıran olmalıdır, ağlı qədər təcrübəyə, təcrübə qədər ağla, hər ikisi qədər də vicdana güvənməlidir; o, elmə aşina olmalıdır; o, insani dəyərlərin müdafiəçisi olmalıdır; o, konstruktiv olmalıdır və problemlərə qurucu yanaşmalıdır.[3]

Yarımfəsildə xüsusilə qeyd olunmuşdur ki, informasiya cəmiyyətində sosiologiya elminin tədqiqat obyekti də müəyyən qədər genişlənir. Xüsusilə də İKT-nin həyatın bütün sahələrinə nüfuz etdiyi yeni şəraitdə insanla bağlı sosial problemlər də dərinləşir və yeni mahiyyət kəsb etməyə başlayır. Artıq yeni mühitdə insanla bağlı problemlər yalnız "insan-insan" və ya "insan-cəmiyyət" münasibətləri kontekstində araşdırılmır, bunlara "insan-kompyuter-insan" münasibətləri də əlavə olunur.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan informasiya cəmiyyətinin formalaşması şəraitində"** adlanır və bu fəsil iki yarımfəsildən ibarətdir. Bu fəslin "Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasında dövlətin rolu və yeni cəmiyyət

---

[1] Семенюк Э.Л. Информационная культура общества и прогресс информатики. НТИ.: Сер.1. 1994. №7.

[2] Maltepe Universitetinin rəsmi saytı www.maltepe.edu.tr/05_haber/reh_sempozyum/gulbahar_gul.doc

[3] Selim A. Bilgi Çağında İnsan. İzmir: T.Ö.V. Yayınları, 1994, s.305.

quruculuğu sahəsində müasir Azərbaycanın imkanları" adlanan birinci yarımfəslində qeyd olunmuşdur ki, informasiya cəmiyyəti quruculuğu geniş tərkibli proses olduğu üçün, yəni dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etdiyi üçün dövlət səviyyəsində tədbirlərin həyata keçirilməsi zəruridir. Yəni bu, dövlət siyasətinin mühüm tərkib hissəsi olmalıdır. Ölkənin informasiyalaşdırılması yolu ilə informasiya cəmiyyətinin formalaşdırılması təşkilati, sosial-iqtisadi, elmi-texniki, texnoloji və ən başlıcası, siyasi əhəmiyyətə malik mürəkkəb prosesdir. Onun müvəffəqiyyətlə həyata keçirilməsi bu işə cəlb olunan siyasi-inzibati, maliyyə, insan, texniki və s. resurslardan səmərəli istifadə olunmasını, prioritetlərin və fəaliyyət istiqamətlərinin düzgün müəyyən edilməsini, görülən işlərin tənzimlənməsini və əlaqələndirilməsini tələb edir.

İnformasiya cəmiyyəti quruculuğu istiqamətində dövlətin görə biləcəyi işlər geniş şaxəlidir. "Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"da informasiya cəmiyyətinə keçid üçün əlverişli şəraitin hazırlanmasında dövlətin rolu və fəaliyyəti müəyyən olunmuşdur. Bu rolların birincisi qanunvericilik bazasının formalaşdırılması və mütəmadi olaraq təkmilləşdirilməsidir. Bununla yanaşı dövlət ölkə daxilində informasiya texnologiyalarının tətbiqi ilə bağlı fəaliyyəti təhlil etməli və tənzimləməli; milli və dövlət informasiya sistemlərini təsis etməli, informasiya resurslarını formalaşdırmalı, dövlət orqanlarının bu istiqamətdə fəaliyyətini idarə etməli; yeni şəraitə münasib olan, xarici və yerli sərmayələri cəlb etməli və iqtisadi fəaliyyətdə ədalətli rəqabətin aparılmasına xidmət edən əlverişli mühit yaratmalı; cəmiyyətin geniş təbəqələrinin strategiyanın həyata keçirilməsinə cəlb edilməsi məqsədilə siyasi, hüquqi, iqtisadi və inzibati mexanizmlərdən istifadə etməklə prosesin bütün iştirakçıları üçün bərabər şərait yaratmalı; hər bir vətəndaşın hüquq və azadlıqlarını müdafiə etməli, şəxsiyyət haqqında və özəl məlumatların qorunmasını təmin etməli; vətəndaşların dövlət informasiya resurslarına müraciət etməsi üçün imkan yaratmalı; ölkənin informasiya təhlükəsizliyini təmin etməli; milli İKT-nin, texniki və proqram məhsullarının istehsalı üçün əlverişli şərait yaratmalı, onların dünya bazarına çıxarılmasını stimullaşdırmalı; İKT sahəsində fəaliyyət göstərən özəl şirkətlər, xüsusilə kiçik və orta müəssisələr üçün, eləcə də müasir İKT-nin

iqtisadiyyatın bütün sahələrində tətbiqi üçün əlverişli şərait yaratmalı; dövlət idarəetməsində və yerli özünüidarəetmədə müasir texnologiyalardan istifadə olunmasını təmin etməli; elektron hökumətin formalaşdırılması istiqamətində ardıcıl fəaliyyət həyata keçirməli; İKT sahəsində ölkənin milli maraqlarını təmin edən beynəlxalq əməkdaşlığı inkişaf etdirməlidir və s.[1] Bu rolların sadalanması və Milli Strategiyaya daxil edilməsi onu göstərir ki, Azərbaycanda dövlət informasiya cəmiyyətinə keçid istiqamətində üzərinə düşən məsuliyyəti dərk və qəbul edir.

İnformasiya cəmiyyəti quruculuğu istiqamətində Azərbaycanın potensialına gəlincə, yarımfəsildə qeyd olunmuşdur ki, informasiya cəmiyyəti quruculuğu sahəsində ölkəmizin imkanlarını müsbət və mənfi xarakterizə edən amilləri üzə çıxarmaq vacibdir. Əvvəla, məsələyə müəyyən qədər konseptual yanaşılaraq vurğulanmışdır ki, Azərbaycan inkişaf etmiş ölkə olmadığı üçün informasiya cəmiyyətinə keçid prosesində müəyyən problemlərlə qarşı-qarşıyadır. Bu problemlər iqtisadi, sosial, mədəni və siyasi xarakter daşıyır. Eyni zamanda Azərbaycanın 70 il müddətində sovet rejimində yaşaması da bu prosesi ləngidir. Çünki sənaye cəmiyyətini kapitalist rejimdə yaşayan ölkələrin informasiya cəmiyyətinə keçmələri daha sürətli və rahatdır. Digər mənfi amilləri isə belə sıralamaq mümkündür: Azərbaycan ərazisinin 20 faizinin Ermənistan Respublikasının Silahlı Qüvvələrinin işğalı altında olması; əhalinin informasiya cəmiyyəti barədə az məlumatlı olması; İKT sahəsi üzrə yüksək səviyyəli milli mütəxəssis sarıdan çatışmazlıq; mövcud təhsil sisteminin həm məzmunca, həm də texniki parametrlərinə görə informasiya cəmiyyətinin standartlarına cavab verməməsi; ölkə iqtisadiyyatının informasiya iqtisadiyyatına uyğun qurulmaması və iqtisadiyyatda informasiya sektorunun formalaşmaması; İKT-nin inkişaf səviyyəsinə görə şəhər və rayonlar arasında kəskin fərqlərin olması; ölkə miqyasında kompyuterləşmənin səviyyəsinin aşağı olması; ölkədə istər informasiya cəmiyyəti, istərsə də onun infrastrukturu olan İKT sahəsində Azərbaycan dilində kifayət qədər ədəbiyyatın olmaması.

---

[1] Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları Üzrə Milli Strategiya (2003-2012-ci illər)
http://ict.az/az/index.php?option=com_content&task=view&id=335&Itemid=255

İnformasiya cəmiyyəti quruculuğu baxımından ölkəmizin imkanlarını müsbət xarakterizə edən amilləri isə belə sıralanmışdır: ölkəmizdə savadlılıq və təhsil səviyyəsinin yüksək olması (96,9%)[1]; dövlətin informasiya cəmiyyətini qurmaq üçün siyasi iradə nümayiş etdirməsilə yanaşı, bu istiqamətdə real addımlar atması (Bu addımlar həm qanunvericilik, həm də qəbul olunan qanunların icrasında özünü göstərir. Hətta Azərbaycan Prezidenti İlham Əliyev informasiya cəmiyyətinin əsas infrastrukturu sayılan İKT sektorunu neftdən sonra ikinci prioritet istiqamət olaraq elan etmişdir[2]. 2013-cü il "İKT ili" elan edilmişdir); ölkənin maliyyə imkanlarının geniş olması; ölkə iqtisadiyyatının sürətli inkişafı və investisiyalar üçün cəlbedici olması; Azərbaycanın regionda yeganə olaraq, süni peykə sahib olması (2013-cü ilin fevral ayının 8-də Azərbaycanın özünün ilk telekommunikasiya peykini - "Azərspace-1"i uğurla orbitə buraxması da bunun göstəricisidir. Bunun davamı olaraq qeyd edilməlidir ki, Qafqazda ilk peyk operatoru olan "Azərkosmos" da məhz Azərbaycanda yerləşir və buradan "Azərspace"ə nəzarəti həyata keçirmək üçün bütün imkanlar vardır. Azərbaycan 2015 və 2016-cı illərdə daha iki peykini orbitə yerləşdirməyi planlaşdırır[3]); Qərb ilə Şərqi birləşdirən beynəlxalq nəqliyyat magistralları və rabitə kanallarının ölkəmizdən keçməsi; respublika ərazisinin mobil və naqilli telefon şəbəkəsi ilə bütünlüklə əhatə olunması, eləcə də bu sahədə rəqəmsallaşmanın aparılması və s.

İkinci fəslin "İnformasiya cəmiyyətinin sosial-iqtisadi strukturu və müasir Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasının şərtləri" adlanan ikinci yarımfəslində əvvəlcə informasiya cəmiyyətinin iqtisadi əsaslarına diqqət yetirilmiş və informasiya sənayesinin roluna nəzər salınmışdır. Qeyd olunmuşdur ki, bəşəriyyətin bir inkişaf mərhələsindən digərinə keçməsi əsasən iqtisadi amillərlə bağlıdır. İqtisadi münasibətlərdə baş vermiş inkişaf özü ilə birlikdə sosial, mədəni və digər dəyişiklikləri də gətirir və bütövlükdə cəmiyyətin yeni məzmun qazanmasına səbəb olur. Bu mənada informasiya cəmiyətinin də özünəməxsus iqtisadi strukturu mövcuddur. İnformasiya

---

[1] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi http://www.azstat.org
[2] "Rabitə dünyası" qəzeti, www.rabitadunyasi.info.az/rd/dim.asp?id=6924
[3] Azərbaycan Dövlət Teleqraf Agentliyinin rəsmi saytı. http://azertag.com/node/1053503 (8 fevral, 2013-cü il)

iqtisadiyyatında istehsalatın bir çox qismi əşyalardan deyil, ideyalardan ibarətdir. Yəni mallardan qeyri-mallara keçid müasir iqtisadiyyatın əsasını təşkil edir. Bilik və informasiya ənənəvi əmtəədən onunla fərqlənir ki, onları sonsuz həddə istismar etmək, surətini çıxarmaq və istehlak etmək olar. Bu məsələdə yeganə məhdudiyyət qavrama qabiliyyətinin olmamasıdır. İnformasiya cəmiyyətində sənaye iqtisadiyyatı xidmət iqtisadiyyatına çevrilir. Yəni aqrar və sənaye sektorlarının istehsal və məşğulluqdakı payı azalarkən, xidmət sektorunun payı artmaqdadır. Fransız tədqiqatçı Jan Furastyenin fikrincə, yeni cəmiyyətin işçi qüvvəsinin 85 faizi xidmət, 10 faizi sənaye, 5 faizi isə aqrar sektorda çalışacaq.[1]

Belə bir fikir xatırladılmışdır ki, hazırda iqtisadi gücün qaynağı azlığın əlində olan pul deyil, çoxluğun əlində olan informasiyadır.[2]

Daha sonra informasiya cəmiyyətinin sosial-iqtisadi strukturuna dair tələblər Azərbaycan reallığına tətbiq edilərək, ölkəmizin vəziyyəti təhlil edilmişdir. Bu təhlil zamanı həmçinin, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə (statistika əsasında) müqayisə də olunmuşdur.

Dissertasiya işinin üçüncü fəsli **"Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasının empirik təhlili və ümumiləşdirmə"** adlanır və iki yarımfəsildən ibarətdir. "Fərziyyələrin və sorğu anketinin işlənməsi" adlandırılan birinci yarımfəsildə qeyd olunmuşdur ki, informasiya cəmiyyətinin formalaşması prosesi kompleks tədbirlər çərçivəsində nəzərdən keçirilir. Bu tədbirlərə bir tərəfdən infrastrukturun qurulması və qanunvericilik bazasının formalaşdırılması, digər tərəfdən isə, bu infrastrukturun və hüquqi imkanların əhali tərəfindən mənimsənilməsi problemi daxildir. Yəni informasiya cəmiyyəti ilə bağlı reallığın əhali tərəfindən dərk edilməsi olduqca vacib məsələlərdən biridir. Yaranmış yeni sosioloji vəziyyət ciddi bir empirik tədqiqatın aparılmasını zəruri edir və bu empirik tədqiqat araşdırılması nəzərdə tutulan ümumi problemlərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu tədqiqatda ortaya qoyulmuş problem də məhz informasiya cəmiyyəti ilə bağlı məsələlərin insanların şüurunda hansı formada əks olunduğunu və insanların baş verməkdə

[1] Dura C. Bilgi Toplumu. Ankara: Kültür Bakanlığı Yayını, 1990, s.64.
[2] Alakuş M. Bilgi Toplumu. Ankara: Kültür Bakanlığı Yayınları, 1991, s.20.

olan qlobal dəyişikliklərə hazırlıq səviyyələrini empirik yolla müəyyənləşdirməkdən ibarətdir.

Empirik tədqiqat aparılarkən müasir sosioloji konstruktivizm, yəni makro və mikro mühitin qarşılıqlı əlaqələrini nəzərdə tutan konstruktivist metodologiya əsas götürülmüşdür. Bununla yanaşı, dissertasiyada qoyulmuş problemin sosioloji tədqiqatı son illər ərzində müəllifin müşahidələrinə də əsaslanmışdır. Həm tədqiqatın metodoloji əsası, həm də müəllifin müşahidələri müəyyən fərziyyələrin (hipotezaların) irəli sürülməsinə imkan vermişdir. Bu fərziyyələr aşağıdakılardır:

1- Azərbaycan vətəndaşları informasiya cəmiyyətinə kifayət qədər hazır deyillər. Yəni ölkədəki mövcud sosial, psixoloji, iqtisadi, siyasi, mədəni infrastruktur informasiya cəmiyyətinin tələblərinə cavab vermir. Bu, informasiya cəmiyyəti anlayışı və bu anlayışın əhatə dairəsinə daxil olan məsələlərin ölkə vətəndaşları üçün tamamilə yeni olmasından qaynaqlanır. Nəticə etibarilə baş verməkdə olan yeniliklər və dəyişikliklər Azərbaycan vətəndaşları tərəfindən lazım olan səviyyədə qavranılmır, informasiya cəmiyyətinin əhəmiyyəti yetərincə başa düşülmür.

2- Azərbaycan vətəndaşlarının informasiya cəmiyyətinin üstünlükləri barədə məlumatlarının azlığı, öz növbəsində, onların yeni cəmiyyətə adaptasiyalarını, eləcə də Azərbaycanın informasiya cəmiyyətinə keçməsi prosesini ləngidir.

3- İnformasiya cəmiyyətinə keçid ilə bağlı problemlər insanların informasiya cəmiyyəti barədə ya az məlumatlı olmalarından, yaxud da mövcud məlumatlarının səhv və qeyri-dolğun olmasından, eləcə də İKT-dən istifadə imkanlarının bu və ya digər səbəbdən məhdud olmasından qaynaqlanır. Bu səbəblər arasında əhalinin maddi vəziyyətinin qeyri-qənaətbəxş olması əsas rol oynayır.

4- Azərbaycan vətəndaşları informasiya cəmiyyətinin əsas faktoru olan informasiyaya tələb olunan qədər həssas deyillər. İnformasiyanın müasir cəmiyyətdə aktiv şəkildə iştirakın zəruri amili olması faktı kifayət qədər başa düşülmür. Bu səbəbdən ölkə vətəndaşları cəmiyyətdə baş verən bir çox hadisə və proseslərdən kənarda qalırlar.

5- İnformasiya cəmiyyəti ilə bağlı reallıq və bu cəmiyyətin tələbləri Azərbaycan vətəndaşları üçün yeni olsa da, insanlar şüurlu şəkildə bu tələblərə qarşı sosial müqavimət göstərmirlər. Ölkə vətəndaşlarının yeniliklərə, dəyişməyə və inkişafa meyilli olmaları Azərbaycanda informasiya cəmiyyətinin perspektivi ilə bağlı optimist fikir söyləməyə əsas verir.

İrəli sürülmüş fərziyyələrdən də göründüyü kimi sosioloji tədqiqatın obyektini müasir Azərbaycan vətəndaşlarının informasiyaya, informasiya cəmiyyətinə, eləcə də İKT-ə münasibəti təşkil edir. Tədqiqat üçün belə bir istiqamətin seçilməsi o məqsədə xidmət edir ki, bu yolla ölkədə insanların informasiya cəmiyyəti ilə bağlı yenilikləri mənimsəmə səviyyələrini müəyyənləşdirmək, bununla bağlı vəziyyəti təhlil etmək, problemləri üzə çıxarmaq və perspektivi müəyyənləşdirmək, eyni zamanda cəmiyyətin ayrı-ayrı təbəqələri arasında müqayisəli təhlil aparmaq da mümkün olacaqdır.

Bu fərziyyələrin yoxlanılması üçün sosioloji sorğunun anketləşdirmə metodundan istifadə olunmuşdur. 274 nəfəri əhatə edən sorğu anketi müxtəlif sosial təbəqələr, eləcə də fərqli yaş xüsusiyyətlərinə malik insanlar arasında anonim şəkildə keçirilmişdir. Bu təbəqələri belə qruplaşdırmaq mümkündür: elm adamları (Azərbaycan Milli Elmlər Akademiyasının 4 institutunun elmi işçilərindən ibarət 59 nəfər), universitet tələbələri (Bakı Dövlət Universiteti və Qafqaz Universitetindən 45 nəfər), orta məktəbin 10 və 11-ci sinif şagirdləri (Xırdalan şəhər məktəblərinin birindən 33 nəfər), ofis şəraitində çalışan mətbuat işçiləri ("Zaman-Azərbaycan" qəzetinin baş ofisinin bütün kollektivindən ibarət 30 nəfər), sahibkarlar (orta və kiçik sahibkarlardan ibarət 33 nəfər) və təsadüfi yolla seçilənlər (74 nəfər). Burada həmçinin, niyə cəmiyyətin məhz bu təbəqələrinin sorğu obyekti kimi seçilməsi əsaslandırılmışdır.

Yazılı şəkildə respondentlə birbaşa görüş şəraitində realizə olunmuş sorğu anketi 5 blokdan ibarətdir və insanların İKT məhsullarından istifadə səviyyəsini, bu məhsullardan hansı məqsədlə və hansı şəraitdə istifadə etdiyini, informasiya cəmiyyətinə nəzəri və praktik hazırlıq səviyyəsini, eləcə də bu cəmiyyətə, onun infrastrukturu olan İKT-yə və informasiyaya münasibətini alternativ yollarla öyrənməyə xidmət edir.

Sonuncu fəslin "Sorğunun keçirilməsi və təhlili" adlı ikinci yarımfəslində sorğu emal olunmuş və müvafiq nəticələr əldə edilmişdir. Sorğunun nəticələri əsasında bu qənaətə gəlmək olar ki, Azərbaycan vətəndaşlarının informasiyaya duyduqları ehtiyac ilə bağlı fərziyyə istisna olmaqla, sosioloji tədqiqatın hipotezası özünü doğrultmuşdur.

Dissertasiya işinin **"Nəticə və təkliflər"** hissəsində tədqiqat zamanı ayrı-ayrı fəsillərdə araşdırılmış məsələlərə dair başlıca qənaətlər ümumiləşdirilmiş, informasiya cəmiyyətinin formalaşması üçün cəmiyyətimizdəki sosial, iqtisadi və mədəni yenilənməyə kömək edəcək müəyyən tövsiyələr və təkliflər öz əksini tapmışdır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində əksini tapmışdır:**

1. Bəşəriyyətin yeni inkişaf mərhələsi: İnformasiya cəmiyyəti // Bakı Slavyan Universiteti. "Elmi əsərlər" jurnalı (İctimai-siyasi elmlər seriyası), Bakı, 2009, №1, s. 71-78.
2. Sənaye və informasiya cəmiyyətləri bəşəriyyətin son iki inkişaf mərhələləri kimi // Azərbaycan Dillər Universiteti. "Elmi xəbərlər" jurnalı, Bakı, 2009, №3, s. 301-307.
3. İnformasiya cəmiyyəti qloballaşma prizmasından // Azərbaycan Dillər Universiteti. "Elmi xəbərlər" jurnalı, Bakı, 2009, №4, s. 391-396.
4. İnformasiya cəmiyyətində insan problemi // Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu və Fəlsəfi Araşdırmalar İctimai Birliyi. "Fəlsəfə" elmi-nəzəri jurnalı, 2009, №1-2(13), s. 51-56.
5. Yeni iqtisadiyyatın əmtəəsi: informasiya // Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu. "Elmi əsərlər" jurnalı. I Buraxılış. Bakı, 2009 (№1), s. 393-397.
6. Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasında dövlətin rolu və elektron dövlət anlayışı // Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. "Elmi Əsərlər" elmi-nəzəri jurnalı, 2010, №2.
7. Bilgi toplumu ve Azerbaycan // Turan Stratejik Araştırmalar Merkezi Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi, Konya/Türkiye, Sayı: 3, Yıl: 2009 Yaz Dönemi, s. 146-153.

8. Azərbaycanda informasiya cəmiyyətinin formalaşma problemləri (Tezislər) // "Fəlsəfə və sənətşünaslıq: fənlərarası qarşılıqlı əlaqələrin metodologiyası" mövzusunda beynəlxalq elmi konfrans. Bakı, 2010, 25-26 may. s. 48-50.
9. Некоторые социологические аспекты информационного общества // Київському Національному Університеті імені Тараса Шевченка. «Політологічний вісник». Київ, 2011, №53, 244-253.

**Натиг Закария оглу Панахлы**

## Формирование информационного общества в Азербайджане (проблемы и перспективы)

## РЕЗЮМЕ

Данная диссертационная работа посвящена исследованию процессов становления информационного общества в Азербайджане.

Работа состоит из введения, трех глав, заключения, трех приложений и списка использованной литературы.

Во введении обоснована актуальность темы, прослеживается степень разработанности проблемы, определяются цель, задачи, теоретико-методологические основы исследования, характеризуются научная новизна и научно-практическое значение работы.

Первая глава диссертации посвящена «Теоретико-методологическим проблемам формирования информационного общества», где исследуются ряд западных теоретико-методологических концепций, и в частности, социологический конструктивизм как методологическая база данного диссертационного исследования. Акцентируется внимание непосредственно, на проблеме человеческого фактора в условиях информационного общества.

Вторая глава - «Азербайджан в условиях формирования информационного общества» посвящена рассмотрению роли и

возможностям современного Азербайджанского государства на формирование информационного общества в Азербайджане.

Третья глава - «Эмпирический анализ и обобщение особенностей формирования информационного общества в Азербайджане», где проведен социологический анализ среди различных социальных страт (274 респондентов).

В заключении обобщаются основные научные выводы, подводится итог исследованию. Результаты социологического опроса, проведенные среди различных страт общества, позволит обобщить ряд практических важных рекомендаций.

**Natig Zakariya oglu Penahli**

## The formation of information society in Azerbaijan (problems and perspectives)

## SUMMARY

The dissertation is dedicated to the research of the construction process of information society in Azerbaijan, and the advantages and disadvantages of the country in this process.

The dissertation consists of the introduction, three chapters, a conclusion, four appendixes and the list of used literature.

In the introduction the urgency of the theme is grounded, the investigation level of the problem up to now is narrated, the purposes and duties, also theorical-methodological basis of the work is defined, scientific novelty is formulated, scientific-practical value of the work is underlined.

The first chapter is called "The theorical-methodological problems of the formation of information society" and envolves three paragraphs. In this chapter the widespread conceptions and theories are gathered, and picked out the proper model for Azerbaijan from among these theories, also glanced to the history of information society; compared globalization and information society as two global actions. Social aspects of information society and the human problem in the new reality are investigated in this chapter.

The second chapter is called "Azerbaijan – in a forming condition of information society" and envolves two paragraphs. The rolu and opportunities of the state at formation of information society are investigated; the social-economical structure of information society for Azerbaijan is formed in this chapter.

The third chapter is called "The empirical analyse of the formation of information society in Azerbaijan and generalization" and envolves two paragraphs. Here are analized the result of questioning held among 274 peoples.

In the conclusion the results of the research are summed up, generalized, and some effective advices and proposals are moved.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

На правах рукописи

**НАТИГ ЗАКАРИЯ оглы ПАНАХЛЫ**

# ФОРМИРОВАНИЕ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА В АЗЕРБАЙДЖАНЕ (ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ)

Специальность: 6312.01 – Теория, методология и история социологии

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии  по социологии

**БАКУ - 2013**